Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycan ordu amilini Qarabağ çözümündə ön plana çıxarır...

**Dağlıq Qarabağ münaqişəsi ətrafında işğalçı Ermənistanın son addımları məsələnin dinc müstəvidə həllini əngəlləməkdə davam edir. Xüsusən də separatçı rejim rəhbərinin Şuşada təşkil edilən "andiçmə" mərasimi Ermənistanın sülh yolundan uzaq qaçdığını çox aydın şəkildə nümayiş etdirir.**

Hadisələrin bu səpkidə inkişafı isə əraziləri işğal altında qalmaqda davam edən Azərbaycanı təbii olaraq ciddi surətdə narazı salır. Bütün bunlar fonunda rəsmi Bakı Qarabağ konfliktini güc müstəvisində həll etməkdən başqa çıxış yolunun qalmadığına dair xəbərdarlıqlarını artırır, düşmənə, onun havadarlarına açıq mesajlar verir.

Qeyd edilən xüsusda son dövrlərdə bir neçə məqam ayrıca diqqət cəlb edir. Bunlardan biri Prezident İlham Əliyevin Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-3" yaşayış kompleksinin açılışında çıxışı zamanı səsləndirdiyi fikirlərdir. Dövlət başçısı burada ordumuzla bağlı maraqlı xəbərdarlıqlar etdi:"Aprel döyüşləri və uğurlu Naxçıvan əməliyyatı göstərdi ki, Azərbaycan ordusu istənilən vəzifəni icra edə bilər". Bunun ardınca diqqət çəkən daha bir məqam Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun Azərbaycan ordusunun rəhbər heyəti ilə xidməti müşavirədə dedikləri oldu. Nazir bildirib ki, şəxsi heyət torpaqlarımızın azad olunması məqsədilə düşmənə bütün istiqamətlərdə sarsıdıcı zərbələr endirməyə hazır olmalıdır:"Düşmən tərəfi anlamalıdır ki, bu dəfə görüləcək tədbirlər 2016-cı ilin aprelindən tam fərqli olacaq, vurulacaq zərər isə ümumilikdə onun siyasi, iqtisadi və hərbi tənəzzülünə gətirib çıxaracaq". Bundan başqa, müdafiə naziri diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin yürütdüyü uğurlu xarici siyasət nəticəsində bu gün Azərbaycan ordusunun hərbi-texniki potensialı xeyli yüksəlib:"Bölmələrimizin Türkiyə, Fransa, İspaniya, İtaliya, İsrail, Rusiya, Belarus və hərbi sənayesi inkişaf etmiş digər ölkələrdən müasir silah və hərbi texnikalarla mütəmadi olaraq təchiz edilməsi ordumuzun maddi-texniki təminat baxımından düşməndən xeyli üstün olduğunu nümayiş etdirir". Nazir müasir texniki vasitələrin tətbiqi ilə düşmən müdafiəsinin dərinliyində aktiv kəşfiyyat fəaliyyətinin davam etdirilməsi, döyüş növbətçiliyinin aparılması şəraitinin təkmilləşdirilməsi, şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, döyüş və səfərbərlik hazırlığının yüksəldilməsi, hərbi qulluqçuların tibbi təminatı və bir sıra digər məsələlərlə bağlı vəzifəli şəxslərə konkret göstərişlər verib.

Beləliklə, bu fikirlərdən aydın görünür ki, Azərbaycan ordu amilini Qarabağ məsələsinin həllində ön plana çıxarır. Yaxın tezlikdə münaqişənin çözümü ilə bağlı müvafiq addımlar atılmasa, məhz güc faktoru burada öz sözünü deməli olacaq. Bunu Moskva Siyasi və Hərbi Təhlillər Mərkəzinin direktor müavini, hərbi ekspert Aleksandr Xramçixin də istisna etmir. O bildirib ki, ümumilikdə Azərbaycan və Ermənistan arasında müharibə təhlükəsi həmişə, eləcə də bu gün var:"Mən həmişə demişəm ki, bir gün nəsə bir şey mütləq olacaq. Bundan əlavə, bəli, hərbi təlimlər örtüyü altında müharibəyə başlamaq həqiqətən də bəzən çox rahat olur. Lakin hər iki tərəf bir-birinin hərbi təlimləri haqqında əvvəlcədən öyrəndiyi üçün bu özlüyündə rəqibə xəbərdarlıq edir. Lakin indiki halda Azərbaycan burada daha çox seçilir və onun səbri tükənmiş kimi görünür". Xramçixin qeyd edib ki, bu fonda Bakı məsələnin güc yolu ilə həllinə start verə bilər və bunun üçün Azərbaycan bütün resurslara sahibdir:"Burada həm də beynəlxalq şəraiti nəzərə almaq lazımdır. Məsələn, Rusiyanın proseslərə baxışı indi xeyli dəyişib və bunu Azərbaycanda da yaxşı sezirlər". Ümumiyyətlə, düşmənə də yaxşı bəllidir ki, Bakı əlverişli şərtlər yetişən kimi masa üzərindəki hərb variantını həyata keçirəcək. Analitiklər hesab edir ki, Azərbaycan artıq bu şəraiti formalaşdırıb. İndi Azərbaycanın Qarabağ münaqişəsini güc yolu ilə həll etməsinə dünya, o cümlədən Rusiya hansısa ciddi reaksiya verməyəcək. Ermənistanın "Past" nəşri də yazır ki, bütün bunlar İrəvan üçün böyük təhlükə olduğu halda, Azərbaycan vəziyyətdən maksimal dərəcədə öz lehinə faydalanmağı düşünür:"Rusiya ilə Ermənistan arasında münasibətlərin pisləşməsi Qarabağ münaqişəsi ətrafında duruma getdikcə daha çox təsir edir. Azərbaycanın artan hərbi ritorikasından bunu görmək olar. Üstəlik, Rusiya ilə Ermənistan arasında olanlar iqtisadi ilə yanaşı, həm də siyasi bir komponentə malikdir. Eyni zamanda bu, ümumi dövlətlərarası münasibətlərin yalnız bir tərəfidir. Əslində, son iki il ərzində Ermənistan-Rusiya münasibətləri, yumşaq desək, olduqca qeyri-müəyyəndir. Fakt budur ki, rus tərəfdaşları tərəfindən Ermənistan hakimiyyətinə inamsızlıq artır və qarşılıqlı münasibətlər getdikcə mürəkkəbləşir. Əvvəlcə yeni hakimiyyət Rusiya ilə gözəl tərəfdaşlıq münasibətlərinin olduğuna inandırmağa çalışırdısa, üstəlik, Paşinyan da Putinlə dost münasibətləri olduğunu göstərmək istəyirdisə, indi həm xarici işlər naziri Zöhrab Mnatsakanyan, həm də baş nazir Nikol Paşinyan ciddi problemlərin olduğunu etiraf edir. Bunlar "işgüzar" kimi təqdim olunur, ancaq Paşinyanın "hər şey normaldır" kimi təqdim etməyə çalışdığı şəkildə deyil, daha mürəkkəb olduğu açıq-aydın görünür, problemlər etiraf olmadan da açıqdır, bunu bir sıra hadisələr də sübut edir. Hətta 2019-cu ilin oktyabrında, İrəvanda Ali Avrasiya İqtisadi Şurasının iclası çərçivəsində Putinin bütün "nüansları" ilə səfəri, o cümlədən Robert Köçəryanın həyat yoldaşı və oğlu ilə görüşü, Paşinyan tərəfindən təkrarən yola salınması faktı ilə və digər səbəblər bir çox şeydən xəbər verir. Bu yaxınlarda Rusiyanın xarici işlər naziri Sergey Lavrov Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlarla əlaqədar bir sıra açıqlamalar verdi. Bir həftə əvvəl də Lavrovun Mnatsakanyanla telefon danışığı oldu, rəsmi məlumata görə, onlar koronavirusla mübarizə və Qarabağ münaqişəsinin həlli yollarını müzakirə edib. Elə həmin gün mediada Ermənistanın ikinci prezidenti Robert Köçəryana qarşı siyasi təqib məsələsinin telefon danışığının müzakirə mövzusu olması barədə məlumatlar yayıldı. Xarici İşlər Nazirliyinin mətbuat katibi bu məlumatı təkzib etsə də, telefon danışığının hakim Anna Danibekyanın Köçəryanın qətimkan tədbirini dəyişdirmək barədə vəsatətini ləğv etməsindən ertəsi gün baş verməsi diqqət çəkir.

Bir sözlə, Rusiya rəsmilərinin Ermənistan hakimiyyət orqanlarının, xüsusən Nikol Paşinyanın hərəkətlərinə münasibətini tədricən diplomatik "mesajlardan" birbaşa, üzbəüz "danışıqlar" vəziyyətinə keçməsi halı baş verir. Ermənistan-Rusiya münasibətlərindəki boşluqlar getdikcə daha çox rəng alır, bunu isə heç rus tərəfi də artıq gizlətmir. Rusiya mediasında getdikcə daha sərt yazıların ortaya çıxması təsadüfi deyil ki, bu da Paşinyan və komandasının yaxın ətrafına sətiraltı və "sətirüstü" çox mənfi münasibəti açıq şəkildə göstərir. Bunun davamının Qarabağ müstəvisində olacağına da artıq şübhə yeri qalmır". Hesab edilir ki, bu gedişlə Rusiya Qarabağ kartı ilə də Paşinyan iqtidarının mövqeyini sarsıtmaq niyyətini həyata keçirə bilər. Bu isə zəbt edilmiş ərazilərin daha bir hissəsinin Azərbaycanın nəzarəti altına qayıtması ilə nəticələnəcək. Elə "1in.am" saytı da yazır ki, son günlər Rusiyanın Ermənistana təzyiqləri güclü şəkildə artıb: "Özü də bu təzyiq ən müxtəlif sahələri əhatə edir. Bir sıra hallarda isə diplomatik normaları belə aşır. Mahiyyət etibarilə Ermənistanın hakimiyyət orqanlarına Kreml barmaq silkələyir. Bu təzyiqlərə cavab olaraq Paşinyan iqtidarı daha çarəsiz duruma düşür. Bu durumda Rusiyanın yeni Qarabağ savaşını əngəlləməsini gözləmək sadəlövhlük olardı".

Bütün bu qeyd edilənlər fonunda indi Azərbaycanın da yeni savaş mesajları Ermənistanı daha da əndişələndirir. Düşmən də görür ki, bu gün Azərbaycan ordusu hərbi potensialına, döyüş qabiliyyətinə, təchizatına görə düşməndən dəfələrlə üstün mövqedədir. Azərbaycan ordusunun malik olduğu silah və texnikanın əsas hissəsi tam şəkildə yenilənib, şəxsi heyət ən müasir silahlarla təchiz olunub. Məhz bunun nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələrinin adı dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları sırasında çəkilir. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir. Elə bu fonda da güclü Azərbaycan ordusu istənilən döyüş tapşırığını, hücum əməliyyatını yerinə yetirməyə qadirdir. Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlardan fərqli olaraq, Ermənistanda əks proses müşahidə edilir. Bu durumda ordumuzun qüdrətlənməsi, Qarabağ problemi müharibə yolu ilə həll ediləcəyi təqdirdə, sözsüz ki, ölkəmizin üstünlüyünü artırır. Erməni tərəfini də qorxudan elə budur. Düşmən yaxşı bilir ki, Azərbaycan Qarabağ məsələsində ordunu hərəkətə gətirsə, Ermənistanın tam məğlubiyyəti qaçılmazdır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**